# Cənub Qaz Dəhlizi Avropa üçün yeni alternativ mənbə rolunu oynayacaq

***Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilən VIII toplantısında çıxış edərək ilk iclasdan ötən müddətdə birgə fəaliyyət nəticəsində mühüm nailiyyətlər qazanıldığını vurğuladı.***



Ölkə rəhbəri nitqində Cənub Qaz Dəhlizi layihəsinin uğurla reallaşmasında milli səviyyədə koordinasiya ilə bərabər, dünyanın nüfuzlu enerji və tikinti şirkətlərinin fəal rol oynadıqlarını da diqqətə çatdırdı. Dövlətimizin başçısı daha sonra dedi: "Cənub Qaz Dəhlizi layihəsi həm də müasir tarixdə çox azsaylı layihələrdən biridir ki, onun icrasına bütün aparıcı beynəlxalq maliyyə institutları – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Avropa İnvestisiya Bankı öz töhfələrini vermişdir. Beləliklə, aparıcı beynəlxalq maliyyə institutları bu layihənin icrası üçün kredit və maliyyə vəsaiti ayırdı. İndi biz bütün nöqteyi-nəzərlərdən mürəkkəb olan bu layihənin yüksək səmərəliliklə tamamlanmasına görə həqiqətən də fərəhlənə bilərik".

Buradan göründüyü kimi, Azərbaycan regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinin formalaşmasına müsbət təsir göstərən ölkələrdən biridir. Çoxtərəfli əməkdaşlıq formatını seçən və ona üstünlük verən Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələrindən yalnız qonşu dövlətlər olan Gürcüstan və Türkiyə deyil, həmçinin bir sıra Avropa ölkələri də faydalanırlar.

2020-ci ilin sonundan etibarən Azərbaycan dəhliz vasitəsi ilə Avropaya mavi qaz ixracına başlayıb. Ötən il Avropaya 7 milyard kubmetr mavi qaz nəql edilib. Bu il həmin rəqəmin 10 milyard kubmetrədək yüksələcəyi gözlənilir. Bütövlükdə Azərbaycan Avropaya birinci mərhələdə 10 milyard kubmetr, ikinci mərhələdə isə 20 milyard kubmetr mavi qaz nəql edəcəyi nəzərdə tutulur. Cənub Qaz Dəhlizinin ötürülmə qabiliyyəti 31, 5 milyard kubmetr olacaq ki, bu da praktik olaraq, Avropa üçün yeni alternativ mənbə rolunu oynayacaq.

Cənub Qaz Dəhlizi, eyni zamanda, Azərbaycanın dövlət büdcəsi gəlirlərinin daha da artması, respublikaya valyutanın davamlı şəkildə daxil olması baxımından mühüm önəm daşıyır. Ölkəmizin Cənub Qaz Dəhlizi çərçivəsində ixrac olunacağı mavi qazdan mövcud qiymətlər ilə 100 milyard dollardan artıq gəlir əldə edəcəyi də gözlənilir.

Sonda iclasda səsləndirilən bir məsələni də qeyd etmək istərdim. Prezident İlham Əliyev çıxışında Azərbaycanın neft ixracına 2006-cı ildən başladığını, təchizatda heç bir fasilə olmadığını, müqavilə şərtlərinin pozulmadığını, enerji siyasəti arxasında heç bir siyasi gündəmin nəzərdə tutulmadığını qeyd edib. Dövlət başçısı bu məqamla bağlı deyib: "Bizim enerji siyasətimiz həmişə çox açıq, şəffaf, biznes və nəticələrə hesablanmış olub, əməkdaşlığa və qarşılıqlı dəstəyə gətirib çıxarıb. İndi isə mən qaz alan ölkələrin bazarlarında Azərbaycan qazının payı ilə əlaqədar son məlumatlara baxanda görürəm ki, bu ölkələrin bəziləri qaz istehlakının 80 faizini, digərləri isə 15-20 faizini Azərbaycandan alırlar və bu göstəricilər artır. Çünki biz hasilatı artırmağı planlaşdırırıq. Bu il biz keçən illə müqayisədə qaz bazarındakı vəziyyətin sabit olmamasını nəzərə alaraq daha çox ixrac edəcəyik. Həmçinin qiymətlər də çox dəyişkəndir...".

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü***

Xalq qəzeti.- 2022.- 6 fevral.- S.3.